# 2023-cü ilin avqust ayı üzrə nəticələr

## İSTEHLAKÇI HÜQUQLARI VƏ VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ

2023-cü ilin avqust ayı üzrə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik və istilik enerjisi, təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 788 müraciət daxil olub.

Bunlardan:

Elektrik enerjisi təchizatı ilə bağlı 66-sı məlumat üçün olmaqla cəmi 708 müraciət;

Təbii qaz təchizatı ilə bağlı 4-ü məlumat üçün olmaqla cəmi 54 müraciət;

İstilik təchizatı ilə bağlı 1-i məlumat üçün olmaqla cəmi 19 müraciət;

2-si məlumat üçün olmaqla 7 müraciət isə digər məsələlərlə bağlı olub.

788 müraciətdən:

271 müraciət Agentlik tərəfindən araşdırılıb və cavablandırılıb (8 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti quruma göndərilib);

1 müraciət Energetika Nazirliyi ilə müştərək icra olunub;

443 müraciət hazırda baxılma prosesindədir;

73 məlumat xarakterli müraciətdən 33-ü qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

## ELEKTRİK VƏ İSTİLİK ENERJİSİ, QAZ TƏCHİZATI

Yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 8 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;

31 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;

Agentliyin səlahiyyətlərinə aid olan Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə 7 inzibati xəta haqqında işə baxılıb və müvafiq qərarlar çıxarılıb.

## BÜDCƏDƏN MALİYYƏLƏŞƏN MÜƏSSİSƏLƏRDƏ KEÇİRİLƏN NƏZARƏT TƏDBİRLƏRİ

Elektrik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədilə 72 nəzarət tədbiri keçirilib;

Qazdan səmərəli istifadənin, "Qazdan istifadə Qaydaları"nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə 58 nəzarət tədbiri keçirilib.

## PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI

Agentlik tərəfindən hesabat dövrü ərzində 27 müəssisədə 60 nəfər olmaqla elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin texniki istismar, təhlükəsizlik texnikası qaydaları üzrə peşə bilikləri yoxlanılıb, yoxlama nəticəsində biliklərin artırılması üzrə təkliflər verilib, bu istiqamətdə müvafiq şəxslərə metodiki yardım göstərilib.

## TEXNİKİ ŞURALAR

15 "ASAN xidmət", 3 "ASAN Kommunal" mərkəzi və 3 KOB evində (Kiçik və orta biznes evləri) fəaliyyət göstərən Texniki Şuralara sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı daxil olan 272 müraciət qəbul edilərək icra edilib.